Hörmətli həmvətənlər!
Azərbaycan Milli Cəbhəsi yarandı!

Dünyanın dört tərəfində yaşıyan milli haqları uğrunda, milli mədəniyyəti yolunda, milli azadlığı üçün canından, varından keçmiş bir qrup azərbaycanlı üç ildirki bu məsləkə mübarizəyə başlayıb azərbaycan milli cibhəsi üç illik gərgin əməyin, yuxusuz gecələrin, əzablı günlərin bəhrəsidir. Yüzlərlə kilometr yol keçmiş, yüzlərlə saat telefon danışıqları, yazışmalar, saysız toplantılar keçirilib. Nəhayət, müzakirələr öz nəticəsini verdi.
Bu saatlarda cənubi azərbaycanda, birləşmiş millətlər təşkilatında, avropada, təhlukəsizlik və əməkdaşlıq təşkilatında, amerikanın sinasında, dünyanın ən böyük insan haqları qurumunda, bütün açıq saytlarda müraciət və bəyanatlarımız yayılır. Bütün qulaqlar "Azərbaycan" eşidir, Bütün dillər "Azərbaycan deyir, bütün gözlər "Azərbaycan" görür.
Azərbaycan milli cibhəsi milyonlar vətəndaşlarımızın haq səsini göylərə qaldırıb, bizi eşitmək istəmiyən, bizim milli varlığımızdan, dilimizdən, tarix və mədəniyyətimizdən qobaranlarda bu səsi eşidəcək.
Əziz soydaşlarımız, bu cibhə sosyal vəziyyətindən, mallı durumundan, cinsi (xanım,ağa) dan asılı olmayaraq hər bir azərbaycanlının cibhəsidir. Bu cibhə bizimdir.
Xalqımızın ən əziz bayramı, Novruz bayramı günündə hər birimiz üçün xoş xəbər, mujdədir. Öz cibhənizin sıralarında gəlin, onu müdafiə edin, qoruyun, azadlığınıza, milli hakimiyyətinizə qoşulun.
Bu yolda hər birimizə müvəffəqiyyət arzulayır, gələcəyə sönməz umid ilə sizlərə güvənirik.

Azərbaycan Milli Cəbhəsi
2003-03-21
İsveç-Malmö